**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ИЛАХА САРДАР ГЫЗЫ КУЛИЕВА**

# ПСИХОЛОГИЯ СОСТОЯНИЯ ЖЕНЩИНЫ В ПЕРИОД БЕРЕМЕННОСТИ И ЕЕ ПОДГОТОВКИ К МАТЕРИНСТВУ

6115.01 – Психофизиология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**БАКУ – 2013**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**İLAHƏ SƏRDAR QIZI QULİYEVA**

# HAMİLƏLİK DÖVRÜNDƏ QADININ PSİXOLOJİ VƏZİYYƏTİ VƏ ONUN ANALIĞA HAZIRLIĞI

6115.01 – Psixofiziologiya

psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor **Bəxtiyar Həmzə oğlu Əliyev**

**Elmi məsləhətçi:** Tibb elmləri doktoru, əməkdar elm xadimi, professor **Solmaz Hüseyn qızı İsrafilbəyli**

**Rəsmi opponentlər:** Psixologiya elmləri doktoru, professor **Ərəstun Təriş oğlu Baxşəliyev**

Tibb elmləri doktoru **Fuad Nadir oğlu İsmayılov**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsi

Müdafiə "_20___" __04____" 2013 –cü il saat "______"-da Bakı Dövlət Universitetinin nəzdində yaradılmış B/FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "______" "_________" 2013- cü ildə göndərilib.

**B/FD. 02.014 Dissertasiya Şurasının elmi katibi** — **psixologiya üzrə fəlsəfə doktoru Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş № 387; tiraj 100
«MBM» mətbəəsində
çap olunmuşdur

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Son illərdə qadınaların hamiləliyə, doğuşa və anna olmağa hərtərəfli hazırlığı müasir dövrün aktual məsələlərindən biridir. Gənc qadının həm orqanizmində, həm də sosial statusunda baş verən dəyişikliklər onda müxtəlif ambivalent hisslər və stress hallarının yaranmasına səbəb olur, özünüqiymətləndirmənin aşağı düşməsi ilə nəticələnir. Belə hallar ətrafdakı insanlarla ünsiyyəti və münasibəti gərginləşdirir, konfliktlərə səbəb olur və bir cox hallarda boşanmaya gətirib çıxarır. Təbii ki, ortaya çıxan belə neqativ halları gələcək ana həyəcanla yaşayır və hələ doğulmamış körpə anada özünə qarşı neqativ münasibət yaradır. Doğuş qadın orqanizminin normal təbii funksiyası olsa da, eyni zamanda onun orqanizmi və psixikası üçün çox çətin sınaqdır. Hamiləliyə psixoloji cəhətdən hazır olmayan qadın doğuşa mənfi emosiyalarla, köməksizlik hissi ilə gəlir.

Nəzərə almaq lazımdır ki, hamiləliyin gedişinin psixoloji aspektləri və qadının analığa yönəlişliyi müxtəlif tədqiqatçıların əsərlərində öz əksini tapmış, bu sahədə önəmli tədqiqatlar aparılmışdır. Lakin bu tədqiqatların sistemli səciyyə daşıdığını söyləmək çətindir.

Qeyd etmək lazımdır ki, ilkin hamiləlik dövrü ücün qadınlara elə spesifik psixoloji yeniliklər xasdır ki, onlar tamamilə yeni, ilk baxışdan tanış olmayan xarakter daşıyır. Hamiləlik zamanı qadının yalnız özü haqqında deyil, həm də onun yaxın əhatəsi, həyatın mənası və ümumilikdə bütün emosional aləm haqqında təsəvvürlərdə ikili dəyişilmə baş verir.

Nəzərə almaq lazımdır ki, hamiləliyin ilkin dövründə qadınlar həddindən artıq həssas olurlar ki, bu da ailədə olan şəxsiyyətlərarası münasibətlərə, gələcək uşaq haqqında təsəvvürlərə ciddi təsir göstərir və analığa hazırlıq ucun böyük əhəmiyyət kəsb edir.

Bütün bunlarla yanaşı hamilə qadınların psixoloji vəziyyətində həm pozitiv və həm də neqativ psixoemosional hallar özünü göstərir ki, bu da onların hamiləliyə münasibətdən və psixoloji statusdan asılıdır. Bir cox qadınlar üçün hamiləlik dövrü xüsusi emosional gərginlik dövrü, həm də «Mən –obraz»ın yenidən konstruksiya edilməsi dövrüdür. Hamiləliyin erkən mərhələsində analığa münasibətin öyrənilməsi gələcəkdə emosional sferada baş verə biləcək fəsadlardan uzaqlaşmağa imkan yaradacaq və bu da doğuş və zahılıq zamanı davranışın adekvat təzahüründə öz əksini tapacaqdır. Bu baxımdan problem olduqca aktualdır və tədqiqi məqsədəuyğundur.

**Mövzunun işlənmə səviyyəsi**. Elmi ədəbiyyatda analıq, xüsusilə də hamiləlik mərhələsinə hazırlıq problemi geniş əhatə olunmayıb. Problemə son

on illərdə diqqət yetirilməyə başlanmış və çox məhdud sayda bir qrup müəlliflər bu problemi araşdırmağa calışmışdırlar (Q.Q.Filippova, S.Y.-Meşeryakov, Maler M., De Maus, Aryes F., Ə.S.Bayramov, Əlizadə Ə.Ə, Əliyev B.H., İsrafilbəyli S.Q., Əhmədova İ.Z., Brutman V.İ., Stoun L., Şorter E., Polok D., Aryes F., Kaqan C., M.S.Radionova, E.Badinter, V.A.Vaqner, N.A. Tix, Erikson E., Vinnikot D., və b.).

Klinik – psixoloji tədqiqatlarda qadının hamiləlik dövründə keçirdiyi stress hallarının somatik xəstəliklər yaratmasına təsiri öyrənilmiş, ayrı-ayrı hallarda isə hamiləlik dövründə özünə münasibətin dəyişməsinin psixoloji aspektləri tədqiq edilmişdir (F.Aleksandr, M.Pıx M., N.V.İsmayılov, E.İ.Şəfiyeva, F.N.-İsmayılov, E.A.Paşayeva və b.). Tədqiq edilən problemin cəmiyyətimiz üçün yuxarıda göstərilmiş əhəmiyyətini, eləcə də bu problemin Azərbaycan psixologiya elmində psixofizioloji baxımdan hələ kifayət qədər işlənməmiş olduğunu nəzərə alaraq biz həmin problemi eksperimental – psixoloji tədqiqini zəruri saymışıq.

**Tədqiqatın obyekti -** hamilə qadınların şəxsiyyətinin fərdi-psixoloji xüsusiyyətləridir.

**Tədqiqatın predmetini** hamiləlik vəziyyətinə müxtəlif səviyyəli hazırlıqlı qadınların şəxsiyyətinin tipləri və fərdi -psixoloji xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın başlıca məqsədi hamilə qadınların şəxsiyyət tiplərinin fərdi-psixoloji xüsusiyyətlərini və onun analığa hazırlığını müəyyələşdirməkdir.

**Tədqiqatın əsas fərziyyəsi.** Qadının psixoemosional və fərdi-psixoloji xüsusiyyətləri hamilə qadının müəyyən şəxsiyyət tipini formalaşdırır və bu da hamiləliyə hazırlığının səviyyəsini və xarakterini müəyyən edir.

Tədqiqatda bir neçə işçi fərziyyə də götürülmüşdür:

1. Hamiləliyin müxtəlif mərhələlərində qadının «Mən-obrazı» əhəmiyyətli dərəcədə dəyişikliklərə uğrayır.Bunun nəticəsində qadının hamiləliyə və qələcək uşağının bütünlüklə təsəvvür edilməsinə münasibəti dəyişir və həyəcan səviyyəsi artır.

2. İlkin hamiləliyin psixoemosional vəziyyəti hamiləliyə münasibətə əhəmiyyətli dərəcədə təsir göstərir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. Analığa hazırlığın və hamiləlik vəziyyətinin öyrənilməsini nəzəri yanaşmaların təhlil edilməsi.

2. Hamiləlik dövründə qadının sərvət dəyərlərinin xüsusiyyətlərinin, eləcə də şəxsiyyətin strukturunda onların rolunun və yerinin müəyyən edilməsi.

3. Analığın və hamiləliyin psixoloji fenomenlərinin öyrənilməsində metodoloji yanaşmaların təhlilinin aparılması.

4. Hamiləlik vəziyyətinə hazırlığın fərdi-psixoloji xüsusiyyətlərinin təhlil edilməsi və hamiləlik vəziyyətinə hazırlığın formalaşmasına yönəlmiş proqramların hazırlanması.

5. Gələcək uşağın obrazının formalaşmasında analığa hazırlığın göstəricisi kimi əsas təsiredici amillərin öyrənilməsi.

6. Pozitiv əhval-ruhiyyəyə təsiredici amillərin və hamilə qadınların psixoloji vəziyyətinin aşkarlanmasına yönəldilmiş empirik tədqiqatın keçirilməsi.

7. İlkin hamiləlik dövründə qadının psixoemosional vəziyyətinin yaxşılaşdırılması üçün psixoterapevtik proqramların işlənib hazırlanması.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq hamilə qadının şəxsiyyətinin tipologiyası yaradılmış, hamilə qadının şəxsiyyətində baş verən dəyişikliklərin istiqamətləri müəyyən edilmişdir. İlk dəfə olaraq bu işdə:

- Qadının hamiləlik vəziyyətinə hazırlığını çətinləşdirən və risk amilləri rolunu oynayan fərdi-psixoloji xüsusiyyətlərin spesifik uzlaşması müəyyən edilmiş, bu prosesdə qadının şəxsi keyfiyyətlərinin strukturunda sərvət dəyərlərinin yeri və xüsusiyyətləri tədqiq olunmuş;
- Hamiləlik vəziyyətində özlərinə qarşı mənfi hisslər bəsləyən qadınlarda özünüqiymətləndirmənin göstəricilərinin aşağı səviyyədə olması onlarda hamiləlik haqqında təsəvvürlərin qeyri-adekvatlığına gətirib çıxarması və bunun da onların gələcək analığa hazır olmalarına göstərdiyi neqativ təsirin dərəcəsi müəyyən edilmiş;
- Hamiləlik vəziyyətində özünüqiymətləndirmənin göstəriciləri aşağı səviyyədə olan qadınlarda gələcək uşaq haqqında təsəvvürlərin adekvat olmadığı ayırd edilmiş, qadının sərvət dəyərlərinin sistemində, sosializasiyasında və adaptasiyasında baş verən dəyişikliklərin mexanizmləri aydınlaşdırılmışdır.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

1. Analığa olan münasibət şəxsi xüsusiyyətlərlə bağlıdır və bunları qadının bir ana kimi şəxsi yetkinliyi ilə əlaqələndirmək olar. Məhz buna görə də hamiləliyin həyəcan xarakteri və hamiləliyin qavranılması analığa münasibətin xüsusi tipi ilə təyin olunur və analığa hazırlığın səviyyəsini ifadə edir.

2. Hamiləliyin meydana çıxması qadınlarda analıq fəaliyyətinin subyekti kimi yeni təcrübə formalaşır və gələcək uşağın obrazında analıq fəaliyyətinin təcrübəsi əks olunur. Bu obraz yalnız doğulmamış uşağın reallığını deyil, həm də qadının şəxsiyyətinin daxili, subyektiv həyat fəaliyyətinin şəraitini əks etdirir.

3. İlkin hamiləlik qadının özü haqqında təsəvvürlərinin xarakterini müəyyən edir. Bu dövrdə şəxsiyyətin yeni implisit nəzəriyyəsi və hamilə

qadının «Mən - konsepsiyası» formalaşır. Dəyişikliklərin dinamikası analıq davranışının müxtəlif variantlarını formalaşdırır.

4. Hər bir hamilə qadın tipinə hamiləliyin qavranılmasının səviyyələri uyğun gəlir ki, bu da onlarda analığa hazırlığın səviyyələrini və münasibətlərin tiplərini müəyyənləşdirilməyə imkan verir.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatın metodoloji əsasını U.Kennonun, F.Aleksandrın, Q.Ammonun, K.Dernerin və U.Ploqun əsərlərində əks olunmuş müddəalar təşkil edir. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi və ilkin müddəaların yoxlanılması, onların keyfiyyət və kəmiyyət təhlili üçün bir sıra tədqiqat metodlarından- müşahidə, qadın üçün uşağın dəyərinin aşkara çıxarılmasında xüsusi tərtib olunmuş anket, «Mənim körpəm», «Valideyn inşası» proyektiv metodikalar, M.Rokiçin «Sərvət dəyərləri» metodikası, İ.V.Dobryakovun «Hamiləliyə münasibət testi», qenoqrammanın qurulması və s. kimi statistik metodlardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Alınan nəticələr hamilə qadının fərdi-psixoloji xüsusiyyətləri haqqında nəzəri təsəvvürləri zənginləşirdir. Çünki bu mərhələdə dəyərlər sistemində qadın şəxsiyyətinin psixoemosional sferasında nəzərə çarpacaq dərəcədə dəyişikliklər baş verir. Onun şüurunda və mənlik şüurunda baş verən müxtəlif dəyişikliklər bir tərəfdən analığa hazırlığı hamiləliyin həyəcan tipi ilə əlaqəsini təyin edir ,digər tərəfdən isə hamilə qadının şəxsiyyət tipini müəyyən edir. Hamiləlik dövründə qadının psixoloji sağlamlığının parametrlərinin ardıcıl dəyişilməsinin təhlili, «ana-körpə» tənzim sisteminin vahid formalaşma dinamikasını izləməyə və bu prosesdə uşağın rolu haqqında təsəvvürlərin genişləndirilməsinə imkan yaradır. Analığa psixoloji hazırlığın səviyyələrinin müəyyən edilməsi ananın əsas davranış tiplərini ayırd etməyə imkan verir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Aparılmış tədqiqatın nəticələri və tövsiyələri hamilə qadınlara psixoloji yardım göstərən praktik psixoloqların və tibb işçilərinin hazırlığında və seçmə fənlərin tədrisində istifadə edilə bilər. Psixoloji korreksiya üsulları tibbi ailə planlaşdırma mərkəzində, Bakı şəhərinin qadın məsləhətxanalarında sınaqdan keçirilmişdir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının elmi seminarlarında, gənc tədqiqatçıların respublika elmi konfranslarında müzakirə edilmişdir. Dissertasiyanın əsas məzmunu, başlıca müddəaları bir neçə məqalə və tezis şəklində çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş,üç fəsil, nəticə,ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə səviyyəsi göstərilir, tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələri, fərziyyəsi, metodoloji əsasları, metodikası, elmi yeniliyi, müdafiəyə təqdim olunmuş müddəalar müəyyən edilir, nəzəri və praktik əhəmiyyəti, nəticələrin aprobasiyası şərh olunur.

Dissertasiyada **«Hamilə qadının psixofizioloji vəziyyətinin tədqiqinin nəzəri əsasları»** adlı birinci fəsildə hamiləlik zamanı baş verən dəyişikliklər, uşaq gözləyən ər-arvad cütlüyünün qarşılıqlı münasibətlərinin müxtəlif tərəfləri nəzərdən keçirilib, ailədaxili davranışın ümumi nəzəri problemləri işıqlandırılmışdır.

Qeyd olunmalıdır ki, ilkin hamiləlik dövründə hamiləlik psixologiyası probleminin təhlil və qadının analığa hazırlığı gələcək ananın şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin öyrənilməsini tələb edir. Hamiləlik zamanı şəxsi göstəricilərin spesifikası və sərvət dəyərlərinin öyrənilməsi adekvat metodikaların və psixoloji konsultasiya və korreksiya vasitələrinin yaradılmasına imkan verir. Tədqiqatlar göstərir ki, hər bir qadının həyatında ilkin hamiləlik mühüm rol oynayır. Çünki hamiləlik tək fizioloji dəyişikliklərlə yox, həm də qadın şəxsiyyətində nəzərə çarpacaq dərəcədə psixoloji dəyişikliklərə gətirib çıxarır. Münasibətlər sistemində hamilə qadının özü haqqında təsəvvürləri keyfiyyət baxımından yeni məzmun qazanır. Bu dövrü şərti olaraq qadın şüurunun böhranı və ya şəxsiyyət böhranı adlandırmaq olar.

Nəzərə almaq lazımdır ki, hamilə qadının şəxsiyyətində mühüm dəyişikliklər baş verir ki, bunlar da onda bəzən anlaşılmayan, tamamilə yeni ambivalent hisslər yaradır, özü və digərləri haqqında yeni təsəvvürlərin yaranması ailədə və bəzi hallarda isə çətin həll olunan konfliktlərin həllində yeni müsbət impulsun yaranmasına səbəb olur.

Çoxsaylı tədqiqatçıların əsərlərində hamilə qadın şəxsiyyətinin müxtəlif sferalarında baş verən dəyişikliklər qeyd olunur (Bertni F., Verni N., Qraber J.K., İsayev D.N.,Rıjkov V.D., və s). Hamiləlik - gestasiya mərhələsində psixofizioloji və şəxsi inkişafın xüsusiyyətləri ilə şərtlənən, neqativ psixi hallarla müşahidə olunan, qadın orqanizminə xüsusi psixoemosional yükdür. Doğuş prosesi tək uşağın həyata gəlməsi ilə deyil, həmçinin yeni ana şəxsiyyətinin, bəzi hallarda isə psixoloji baxımdan müəyyən pozuntularla müşaiyət olunan şəxsiyyətin yaranması ilə nəticələnir.

Qeyd etmək lazımdır ki, hamiləlik zamanı qadında özünü yeni qavramanın əsasında özü haqqında tam fərqli təsəvvürlərin yaranması baş verir. Hamiləliyin bu mərhələsində qadının fizioloji və psixoloji dəyişiklikləri qavraması və dərk etməsi müşahidə olunur. Hamiləliyi müşayiət edən real bioloji və neyroendokrin dəyişikliklər uşaq gözləyən qadına dərin psixoloji təsir göstərə bilər. Bu dövrdə ortaya çıxan emosional labillik simptomu diqqət tələb edir ki, bu da bu və ya digər dərəcədə hamiləliyin bütün dövrlərinə xasdır. Simptom əhvalın fonunun dəyişməsində özünü birüzə verir ki, bu da emosional dezadaptivliyə gətirib çıxarır.

E.A.Saxarov qeyd edir ki, qadın özünün hamiləliyini dərk etdikdən sonra onda ziddiyyət təşkil edən münasibətlər müşahidə olunur. Bu onun əhvalının tez -tez, situasiyadan asılı olaraq dəyişilməsində, bəzən isə qeyri-adekvat və izah olunmayan hallar kimi özünü birüzə verir. Fərz etmək olar ki, məhz belə psixofizioloji vəziyyət qadının mənlik şüurunun psixi yenidənqurulmasına səbəb olur və tədricən bura uşaq obrazı da daxil olur. Hamiləlik qadın üçün şəxsi əhəmiyyət kəsb edəndə onda müəyyən psixoemosional vəziyyət formalaşır ki, bu da gələcək uşağa xüsusi münasibətlə müşayiət olunur.

Empirik göstəricilərə əsasən hamiləliyin bu dövründə əmələ gələn xüsusi emosional vəziyyət qadının mənlik şüuruna daxil olan gələcək uşaq obrazının yaranmasına səbəb olur. Bu obraz xüsusi hissi və mənalı məzmun ilə zəngindir.

Tədqiqatların təhlilinə əsaslanaraq demək olar ki, hamiləliyin hər hansı bir mərhələsində gələcək uşaq ana üçün arzuolunmaz olarsa, bu mərhələdə qadın həddən artıq əsəbi və gərgin olur. Onun neqativizmini döl də hiss edir. Arzuolunmaz uşağın psixikasının doğuşa qədər zədələndiyi təyin olunur. Müəyyən edilmişdir ki, uzun müddətdə stress vəziyyətində olan ananın qanında izafi həcmdə steroidli hormonlar yaranır və bu da uşağın formalaşan beyninə təsir edir. Ana və hələ doğulmamış uşaq arasında kontaktın həddi və xarakteri yaranan psixikaya təsir edən ən həlledici amildir (V.İ.Brutman, M.Q.Pankratova, S.N. Eninopolov).

Bir çox tədqiqatlarda qadının psixoemosional vəziyyətinin hamiləliyin gedişinə və doğuş prosesinə mənfi təsir göstərməsi qeyd olunur. Hamiləlik xüsusi psixi hal olaraq, qadın şəxsiyyətinin psixoemosional sferasında mühüm dəyişikliklərin əmələ gəlməsinə imkan yaradır. O, yüksək emosional həssaslıqla müşayiət olunur və bu dövrdə qadınlar həddindən artıq ünsiyyətcil olurlar, çünki tənhalıqdan qorxaraq emosional dəstək axtarırlar, onları əhatə edən insanlar tərəfindən qayğı və nəvaziş gözləyirlər. Bəzi hallarda isə onların

davranışında frustrasiya vəziyyətində zəiflik müşahidə olunur, əhvalında dəyişkənlik və həyəcanlılıq özünü birüzə verir.

Dissertasiya işinin **«Hamiləlik dövründə qadının psixoloji xüsusiyyətləri»** adlanan ikinci fəslində hamiləliyə psixofizioloji və psixoemosional hazırlığın problemləri nəzərdən keçirilir. Bəzi tədqiqatlarda hamiləlik dövründə qadının özünü qavraması analığa hazırlığın göstəricisi kimi qeyd olunur. Hamiləlik dövründə qadının özünü qavraması, müxtəlif mərhələlərdə həyəcanlarını hiss etməsi və onlara adekvat olan müəyyən hərəkətlər, həmçinin davranış stereotiplərinin yaranmasına aparan həyəcanların identifikasiyası baş verir. (Antonov A.İ, Metkov V.M.).

Psixologiyada hamiləlik hər şeydən əvvəl postnatal dövrdə analıq funksiyalarının yerinə yetirilməsinə hazırlaşan analıq sferasının inkişaf mərhələsi, yəni analığa psixoloji hazırlıq mərhələsi kimi nəzərdən keçirilir.

Bu problemlə bağlı ədəbiyyatın təhlili göstərir ki, hamiləliyin özünü qavramasının 5 tipi mövcuddur: 1) optimal variant; 2) emosional və somatik halların gücləndirilmiş həyəcanı; 3) hamiləlik vəziyyətinin həyəcanlı keçirilməsi; 4) depressiv hal; 5) hamiləliyin saxlanılmasına baxmayaraq onun rədd edilməsi.

Tədqiqatlar göstərir ki, hamiləliyində düşük təhlükəsi olan qadınlarda astenik emosiyaların güclənməsi müşahidə olunur. Onlar da öz növbəsində şəxsiyyətin aktivliyini azaldır və həssaslığın, təsirliliyin, ürkəkliyin, pessimizmin və itaətlik kimi xüsusiyyətlərin aşkarlanmasına səbəb olur. Bəzi müəlliflər hamiləliyin özünü qavramasının əlamətlərini qadının yaşı ilə və keçmiş hamiləliklərin təcrübəsi ilə əlaqələndirirlər (Brutman V.İ, Spivak L.İ).

Hamiləlik dövründə qadının özünü adekvat qavraması analığa psixoloji hazırlığın əsas kriteriyalarından biridir. Hamiləlik zamanı qadının fizioloji statusunda baş verən dəyişikliklər psixoloji dəyişikliklərə gətirib çıxarır. Psixologiyada hamiləlik hər şeydən əvvəl postnatal dövrdə analıq funksiyalarının yerinə yetirilməsinə hazırlaşan analıq sferasının inkişaf mərhələsi, yəni analığa psixoloji hazırlıq mərhələsi kimi nəzərdən keçirilir.

Aparılmış tədqiqatların təhlili göstərir ki, ilkin analıq dövründə hamiləliyin ilkin mərhələlərində yaranan nevrotik depresiyaların əsas səbəbləri ər-arvad və şəxsiyyətlərarası konfliktlərdir. Bu konfliktlər hamiləliyin saxlanmasının məqsədəuyğunluğu ilə yaranan şübhələr əsasında əmələ gəlir. Ağır itkilər, uşaq salmalar psixogen amil olub nevrotik depressiv halların yaranmasına səbəb olur. Hamiləliyin ən son mərhələlərində vaxtından qabaq doğuş və uşağın ana bətnində tələf olması da psixi travmalarla nəticələnir. Və bu da bir

daha hamilə qadının doğuşa və analığa psixoloji hazırlığının formalaşdırılmasının əhəmiyyətini göstərir.

Dissertasiya işinin «**Müxtəlif yaşa malik qadınların analığa psixoloji hazırlıq səviyyəsinin tədqiqi**» adlanan üçüncü fəsli tədqiqatın keçirilməsinə və nəticələrin təhlilinə həsr olunub.

Tədqiqat Bakı şəhərinin 2 və 5 №-li qadın məsləhətxanalarında keçirilib. Eksperiment iki mərhələdə həyata keçirilmişdir. Birinci mərhələdə uşağı olmayan 16-26 yaş arasında hamilə qadınlar (120 nəfər) iştirak etmişdir. Eksperimentin ikinci mərhələsində 150 qadın iştirak etmiş və onlardan – (eksperimental qrup) 120 nəfər hamilə qadın,30 nəfər (kontrol qrup) isə hamilə olmayan qadınlar olmuşlar. Hamilə qadınlar hamiləliyin müddətinə görə üç qrupa bölünmüşdür: birinci qrupda (13 həftəlik hamiləliyə qədər) - 43 qadın, ikinci qrupda(14-26 həftəlik hamiləlik) -37 qadın, üçüncü qrupda (27 - 40 həftəlik hamiləlik) isə - 40 qadın. Kontrol qrupda 8 qadının bir uşağı, 12 qadının -iki uşağı var idi, 10 qadın isə hamilə deyildirlər.

Tədqiqatın təşkili zamanı nəzərə almışdıq ki, qadının doğuşdan öncəki və doğuşdan sonrakı psixoemosional vəziyyəti "ana obrazının" formalaşmasına və real davranışa yönəlməsini təyin edir. Analıq davranışının pozuntusunun zamanında diaqnostikası onun psixokorreksiyasına və profilaktikasına imkan yaradır.

Tədqiqatın birinci mərhələsində xüsusi tərtib olunmuş anketdən istifadə olunmuşdur. Onun köməyi ilə qadın üçün uşağın dəyərinin dərəcəsi, ananın uşağa münasibətinin tipləri, uşağın tərbiyəsində və inkişafında ananın biliklərinin səviyyəsi aşkar olunmuşdur. Anket üç blok suallardan ibarət idi: tələbat-motiv (dəyər - məna və tələbat-emosional komponentləri daxil olan) bloku, koqnitiv-əməliyyat bloku və analığa hazırlığın sosial-şəxsi bloku. Birinci blokun suallarının köməyilə qadınlarda uşaqlara qarşı olan emosional tələbatın səviyyəsi və ümumilikdə uşağın və analığın dəyərini ölçmək mümkün oldu. İkinci blokun sualları qadının bətnində olan inkişafın xüsusiyyətləri, uşaqların inkişafı və tərbiyəsi haqda biliklərinin səviyyəsinin aşkar olunmasına istiqamətləndirilmişdir. Üçüncü bloka isə analığa hazırlığın sosial-şəxsi səviyyəsinin təyin olunmasının sualları daxil idi.

Nəticələrin təhlili göstərdi ki, 16-20 yaşındakı respondentlər uşağa bir əşya kimi münasibət göstərirlər və bu da uşaqların dəyər göstəricilərinin aşağı olmasını göstərir. Bu göstəricilər cədvəl 3.1 də öz əksini tapmışdır. Birinci yaş qrupunda uşağın dəyəri (15%) təşkil edir və ikinci mövqedə dayanır, digər respondentlər üçün (85%) körpənin həyata gəlməsi dəyərsizdir. Əldə edilən nəticələr göstərir ki, birinci yaş qrupuna aid olan respondentlər ücün uşaq

sərvət dəyərləri sistemində 6-7 mövqedə dayanır (bax cəd.3.1).

Qadınların analığa hazırlığının dəyər-məna göstəriciləri

Cədvəl 3.1

| Qadınların yaşı | Ana olmaq istəyənlərin sayı | | Uşaqların sayı | | Dəyər | |
|---|---|---|---|---|---|---|
| | ümümilikdə | 5 il ərzində | Arzu olunan | Ehtimal olunan | uşağın | analığın |
| 16-20 | 97% | 12% | 1 | 2 | 6-7 pillə | 10% |
| 21-23 | 100% | 32% | 1-2 | 2-3 | 5 pillə | 55% |
| 24-26 | 100% | 92% | 2-3 | 3-və ya | 3 pillə | 80 % |

Tədqiqatın gedişi zamanı müəyən olunmuşdur ki, birinci yaş qrupuna aid qadınlarda onların analığa hazırlığının dəyər-məna səviyyəsi və hamiləliyə emosional müsbət yanaşması çox aşağıdır.(bax cəd.3.2)

Qadınların analığa hazırlığının tələbat-motiv göstəriciləri

Cədvəl 3.2

| Qadınların yaşı | Müsbət-emosional sürət | | Müsbət-emosional köklənmə | | Uşağa analıq qayğısının göstərilməsi |
|---|---|---|---|---|---|
| | uşağın | analığın | hamiləliyə | doğuşa | |
| 16-20 | 27% | 19% | 18% | 12% | 1 yaşa qədər |
| 21-23 | 45% | 38% | 57% | 32% | 2,5 yaşa qədər |
| 24-26 | 82% | 69% | 78% | 53% | 3yaşa qədər |

Respondentlərin 75%-ində müsbət obrazın formalaşmasının səviyyəsinin öyrənilməsi zamanı uşaqlar qadınlarda heyranlıq və sevinc hissinin yaratmasına baxmayaraq, sonrakı mərhələlərdə, tapşırıqların yerinə yetirilməsi zamani bu göstəricilər özünü doğrultmadı. Burada bir-birinə zidd olan vəziyyət yarandı: bir tərəfdən gələcək körpənin obrazı formal və dağınıqdır, digər tərəfdən isə eyforikdir. Bu qrupun nümayəndələrinin analıq roluna münasibəti heç də bir mənalı deyil. 16-20 yaş qadınlar üçün körpənin həyata gəlməsi sevinc hissi yaratmır və analıq roluna müsbət münasibət də müşahidə olunmurdu. Əldə edilən nəticələr göstərir ki, qadınların analığa hazırlığının tələbat-motiv səviyyəsi də çox aşağıdır.

Hamiləlik dövrünün psixofizioloji xüsusiyyətləri,uşaqların tərbiyəsi və inkişafının xüsusiyyətləri haqqında biliklərin məzmununu təşkil edən, qadınların analığa hazırlığının koqnitiv-əməliyyat blokunu xarakterizə etdikdə respondentlərin 40 %-i ananın əsas funksiyalarını adlandıra bilmədilər. Res-

pondentlərin 19%-i ananın əsas funksiyasını uşağın tərbiyəsində, onu hər şeylə təmin etməsində görürlər.10% qeyd etmişdir ki, ən vacibi uşağa məhəbbət, qayğı və nəvaziş göstərməkdir. Yalnız 27%-i dərk edirlər ki, ananın funksiyalarına həm tərbiyə, həm uşağa məhəbbət və qayğı daxildir. Demək olar ki, bütün nəticələr respondentlərin ananın funksiyaları haqqında biliklərin çox az olmasını nümayiş etdirir və nəticəyə gəlmək olar ki, 16-20 yaşında qadınların analığa hazırlığının koqnitiv-əməliyyat göstəriciləri çox aşağı səviyyədədir(bax cəd.3.3).

Qadınların analığa hazırlığının koqnitiv-əməliyyat göstəriciləri

Cədvəl 3.3

| Qadınların yaşı | Qadının bilikləri | | | |
|---|---|---|---|---|
| | Ananın funksiyası haqda | Ana bətnində inkişafın xüsusiyyətləri haqda | uşağın inkişafının xüsusiyyətləri haqda | tərbiyə prosesinin xüsusiyyətləri haqda |
| 16-20 | 21% | 23% | 19% | 19% |
| 21-23 | 63% | 63% | 48% | 42% |
| 24-26 | 88% | 79% | 72% | 53% |

Qadınların cinsi identifikliyinin inkişafı, uşağın tərbiyəsində strategiyanın yönəlişi, uşaq anadan olduqda və tərbiyəsi ilə bağlı olan çətinliklərin aradan qaldırılması suallarını daxil edən analığa hazırlığının sosial-şəxsi blokunun cavablarını təhlil etdikdə aşkar olunmuşdur ki, respondentlərin yalnız 30%-ı hesab edir ki, kişi olmaqdansa qadın olmaq daha yaxşıdır. Respondentlərdən yalnız 40%-i özləri üçün qadın cinsini seçmişdilər. Qalan 60%-i bu suallara cavab verməmişdir. Demək olar ki, bu qrupun respondentləri üçün cinsi identifikliyin inkişafının səviyyəsi çox aşağıdır. Onlar başa düşmürlər ki, qadınlar kişilərdən fərqli olaraq, analıq xoşbəxtliyini dərk edirlər. Bu yaş qrupunun qadınlarında uşağın tərbiyəsi haqqında lazımı qədər anlayışlar yoxdur (bax cəd.3.4).

Qadınların analığa hazırlığının sosial-şəxsi göstəriciləri

Cədvəl 3.4

| Qadınların yaşı | Cinsi identifikliyin formalaşmış səviyyəsinə aid olan qadınlarin sayı | Məsuliyyəti qəbul etməyə hazır olan qadınlarin sayı | Çətinliklərin öhdəsindən gəlməyə hazır qadınlarin sayı |
|---|---|---|---|
| 16-20 | 21% | 37% | 13% |
| 21-23 | 42% | 62% | 53% |

| | | | |
|---|---|---|---|
| 24-26 | 51% | 83% | 92% |

Ümumilikdə 16-20 yaşında qadınların analığa hazırlığının sosial-şəxsi göstəriciləri çox aşağı səviyyədə olmuşdur. Belə bir nəticəyə gəlmək olar ki, 16-20 yaş arasında olan qadınlar yaxşı ana ola bilməzlər. Cədvəllərdən göründüyü kimi, 21-23 yaş arasında olan respondentlərin göstəriciləri 16-20 yaş arasında olan qadınlara nisbətən daha yüksəkdir. Yalnız qadının tamamilə ana rolunu bacarması üçün belə səviyyə də kifayət etmir.

Birinci yaş qrupundan fərqli olaraq ikinci yaş qrupunun nümayəndələri uşaq arzulayırlar, lakin bu hələ ki, onların gələcək planlarına daxil deyil (32%). Respondentlərin 68%-də isə ilk olaraq öz şəxsi kar-yerasını və ailə həyatı qurmaq, yalnız bundan sonra körpəni dünyaya gətirməkdir (bax cədvəl 3.1.)

Tədqiqatın gedişində müəyyən olunmuşdur ki, respondentlərin 60%-i körpənin həyata gəlməsini sevindirici hal kimi qeyd edir. İkinci yaş qrupunun qadınları üçün uşağın dəyəri yüksək deyil və sərvət dəyərləri sistemində yüksək deyil və uşaq 4-cü pillədə yerləşir. 21-23 yaşlı qadınlar üçün birinci pillələrdə maddi təminat və xoşbəxt ailə həyati, özünü realizə etmə və professional əmək fəaliyyəti dayanır.

Tədqiqatın təhlili göstərir ki, əksər respondentlərin hamiləliyə və doğuşa münasibətləri müsbətdir. Bu qrupun (32%) nümayəndələri ana olmaq arzusundadılar, lakin onlar doğuş prosesindən qorxurdular. Körpənin müsbət emosional obrazının səviyyəsini öyrənərkən müəyyən edildi ki, respondentlərin 45%-də o müsbət əhval - ruhiyə yaradır. Eyni sayda olan respondentlərdə isə bu fikir tam əksdir. Onların fikrincə, körpənin həyata gəlməsi gələcək planlardan imtina ilə bağlıdır. Alınan nəticələrin təhlili əsasında demək olar ki, bu yaş qrupunun nümayəndələrinin əksəriyyətinə bir tərəfdən analığa tələbat, motivasiya hazırlığının aşağı səviyyəsi, digər tərəfdən isə orta koqnitiv-əməliyyat hazırlığı uyğun gəlir (bax cədvəl.3.2.).

Ümumilikdə 21-23 yaşlı qadınlarda analığa psixoloji hazırlığın səviyyəsi birinci qrup qadınlarına nisbətən daha yüksəkdir. Lakin analıq rolunun öhdəsindən tam gəlməsi üçün bu kifayət deyil. 24-26 yaşlı respondentlərinin əksəriyyəti (90%) yaxın gələcəkdə körpəni həyata gətirməyi planlaşdırırlar. Onların yarısından çoxu iki uşaq, digərləri isə 3 və daha çox uşağın olması arzusundadırlar. Üçüncü uşağın həyata gətirilməsinə hazır olar qadınlar belə hesab edilər ki, ətrafdakılar çoxuşaqlı analara hörmətlə yanaşır və loyal münasibət göstərirlər.(bax cədvəl.3.1.).



Şək.3.1. Qadınların analığa hazırlığının səviyyələrinin göstəriciləri

Bu yaş qrupunda analığa hazırlığın dəyər-məna səviyyəsi yüksək qeyd olunur və uşaqlara qarşı emosional müsbət münasibət respondentlərin 80%-nə xasdır. Tələbat emosional hazırlığın səviyyəsi isə digər yaş qruplarına nisbətən yüksəkdir.

Ümumilikdə belə bir nəticəyə gəlmək olar ki, üçüncü yaş qrupunun respondentlərinin yüksək biliklərinin səviyyəsinə baxmayaraq bətndaxili inkişafın xüsusiyyətləri haqqında analığa koqnitiv-əməliyyat hazırlığının səviyyəsi elə də yüksək deyil (79%). Çünki bu qrup qadınlarda uşağın tərbiyəsi prosesi haqqında anlayışlar tam formalaşmayıb.

Cədvəllərin göstəricilərinə əsasən belə bir nəticə yalnız 24-26 yaş arasında olan qadınlarda müşahidə olunur. Bu da onu sübut edir ki, bütün əlamətlərə görə analığa hazırdırlar və yaxşı ana olmaq bacarığı yalnız bu qrup qadınlara xasdır.

Tədqiqatın ikinci mərhələsində «Mənim körpəm» şəkilli testin nəticələri təhlil edilmişdir və anketləşdirmə zamanı alınan nəticələrlə müqayisə olunmuşdur. Proyektiv test qadının uşağını qavramasında həyəcan dərəcəsini və ona münasibətinin təyin edilməsi üçün imkan yaratdı. Üç yaş qrupunun anket və şəkillərin təhlili keçirildi. (I qrup – 16-20 yaşlı respondentlər, II qrup - 21-23 yaşlı respondentlər, III qrup – 24-26 yaşlı respondentlər). Eksperimentin gedişində müəyyən olundu ki, birinci yaş qrupu qadınlarda körpəyə emosional müsbət münasibətlərinin səviyyəsi aşağıdır. Respodent-lərin 45% - də uşağın yaşını təyin etmək mümkün olmadı , respondentin 33 %

-də isə uşağı uyğun olmayan yaşda təsvir etmişdilər.

İkinci qrupun respondentlərin (21-23 yaş) əksəriyyəti tapşırığın öhdəsindən gəldilər. Birinci yaş qrupu ilə müqayisədə respondentlərin 25 % uşağı düzgün təsvir etməmişdilər, qadınların 75%-i isə tapşırığı müvəffəqiyyətlə yerinə yetirmişdilər. Uşağa qarşı emosional- müsbət münasibət qismən formalaşmışdır. Respodentlərin 12%-inin şəkillərində körpə qəmgin təsvir olunmuşdur, 51% şəkillərdə detallar tam təsvir olunmamış, uşağın yalnız baş hissəsi əks olunmuşdu. Beləliklə proyektiv testin nəticələrinə əsasən ikinci yaş qrupunun respondentlərində birinci yaş qrupunun qadınlarına nisbətən uşağa qarşı emosional müsbət yanaşmanın səviyyəsi bir qədər yüksəkdir.

Üçüncü qrupda (24-26 yaş ) şəkillər daha da adekvatdır və əksər işlərdə körpə düzgün yaşda əks olunmuşdur.Bu qrupun respondentlərinin 70%-də uşağa qarşı emosional müsbət yanaşmanın səviyyəsi yüksəkdir.

Üçüncü mərhələdə üç yaş qrup qadınlar arasında analığa psixoloji hazırlığın müqayisəli təhlili aparıldı. Ümumilikdə müəyyən olundu ki, uşağı həyata gətirmək üçün 24-26 yaş arasında olan qadınlar tam xüsusiyyətlərə malikdirlər.Çünki analığa psixoloji hazırlığa görə (sosial-şəxsi, koqnitiv-əməliyyat və motiv-tələbat) ən yüksək göstəricilər bu qrupa xasdır.

Dördüncü mərhələdə «Valideyn inşası» metodikasının nəticələri təhlil edilmişdir. Metodikanın əsas məqsədi ananın uşağını real qavramasının üzə çıxarılması idi.

Tədqiqatın gedişində müəyyən olundu ki, birinci yaş qrupu qadınlar üçün (16-20yaş) körpə yüksək əhəmiyyət daşımır və analıq funksiyası onlar tərəfindən qismən dərk olunur.

İkinci yaş qrupunda tapşırıqların əksəriyyətində analıq roluna və körpəyə münasibətdə ümumilikdə sevinc hissləri izlənilir. Digər inşalarda isə körpəyə qarşı məhəbbət hissi formal xarakter daşıyır. Birinci yaş qrupuna nisbətən 21-23 yaşlı qadınlar uşaqların inkişaf və tərbiyəsinə məsuliyyətini dərk edirlər, analıq funksiyası haqqında qismən məlumatlıdırlar. Körpəyə və analığa qarşı münasibəti çox da yüksək deyil. Demək olar ki, anketləşdirmə zamanı alınan göstəricilər və inşanın nəticələri göstərir ki, 24-26 yaş arasında olan qadınlarda uşağa və analığa qarşı münasibətin səviyyəsi digər iki qrupa nisbətən yüksəkdir.

Eksperimentin ikinci hissəsində hamilə qadınların sərvət dəyərlərini müəyyənləşdirmək üçün M.Rokiçin metodikasından istifadə edilmişdir. İlk olaraq eksperiment kontrol (hamilə olmayan qadınlar) qrupunda, sonra isə hamiləliyin müddətinə görə təşkil olunmuş üç yarım qrupda keçirilmişdir. Bu qrupda dəyərlər müxtəlif xarakter daşıyır. Prioritet - terminal blokuna aiddir : xoşbəxt ailə həyatı, aktiv həyat , məhəbbət , özünə inam, azadlıq və sağlamlıq. Bu dəyərlər şəxsiyyətin sosiallaşma səviyyəsini göstərir. Kontrol qrupda kommunikasiyaya yüksək tələbat və dolğun emosional həyat arzusu aşkar

olmuşdur. Kontrol qrupunun əhəmiyyətli instrumental dəyərlər blokuna aiddir: həyatsevərlik, təhsillilik, dürüstlük, işlərdə effektivlik, dözümlülük, sayıqlıq. Bu qrupa aid qadınlarda aşağıdakı dəyərlər üstünlük təşkil edir: məqsədyönlülük və özünə inam. Cəmiyyət tərəfindən qəbul isə arxa plana keçir.

Birinci eksperimental qrupda (hamiləliyin 13 həftəsinə qədər) şəxsiyyətin dəyərlər strukturundakı terminal dəyərləri daha sabit, məqsədyönlüdürlər.

Hamiləliyin birinci trimestrinə aşağıdakı prioritet terminal dəyərlər aiddir: sağlamlıq, məhəbbət, xoşbəxt ailə həyatı, maraqlı iş, həyat müdrikliyi, yaxşı və etibarlı dostlar. Birinci pozisiyada yerləşən «sağlamlıq» hamiləliyin uğurlu gedişatının və sağlam körpənin doğrulmasının rəmzidir. Növbəti pillədə yerləşən «məhəbbət» diqqəti və emosional yaxın münasibətlərin tələbatını nəzərdə tutur. Üçüncü pillədə qərarlaşan «xoşbəxt ailə həyatı» hamiləlik zamanı yaxınları tərəfindən emosional dəstəyin vacib olduğunu bildirir (şəkil 3.2, şəkil 3.3.).

Birinci eksperimental qrupda sərvət dəyərlərinin strukturunda nəzərə çarpacaq dərəcədə dəyişikliklər baş verir. Dəyərlər sırasında ən əhəmiyyətlisi kommunikasiyanın effektivliyinə cavabdeh olan dəyərlərdir ki, hamiləliyin gedişində həyəcanın azalmasına imkan yaradır.

İkinci eksperimental qrupda (hamiləliyin 14-26 həftəsi ) prioritet blokuna ənənəvi dəyərlər aiddir ( adaptasiya və sosiallaşma).

Üçüncü eksperimental qrupda (hamiləliyin 27-40 həftəsi) prioritet terminal dəyərlər blokunu aşağıdakılar təşkil edir: adaptasiya, sosiallaşma və özünüaktuallaşdırma. İnstrumental prioritet dəyərlər blokunda özünə və ətrafdakılara qarşı yüksək tələblərin məsuliyyəti kimi dəyərlər daxildir.




Şək.3.2 Terminal dəyərlər




Şək.3.3 İnstrumental dəyərlər

Tədqiqatda müqayisəli təhlil aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Eksperimental (müxtəlif hamiləlik müddəti ilə ) və kontrol qrupların qadınları şəxsiyyət xüsusiyyətlərinin xarakteristikaları ilə fərqlənirlər. Hamilə qadının orqanizmində baş verən fizioloji dəyişikliklər adaptiv xarakter daşıyır və hamiləliyin qorunmasına yönəlir.

2. Hamiləliyin başlanğıcından doğuşa qədər qadının şəxsiyyətində bir sıra dəyişikliklər baş verir: somatik təzahürlərin sayının artması; ətrafdakıların diqqətinə tələbatın artması; uşağın həyata gətirilməsinin zəruriyyətinin təsdiqlənməsinə tələbatın artması.

3. Doğuşdan öncə gərginliyin və həyəcanın azalmasına imkan yaradan və psixoloji müdafiə rolunda çıxış edən hamilə qadının şəxsiyyətində baş verən dəyişikliklər, öz hərəkətlərinin rasionallaşma vasitəsi ilə həyata keçirilir.

4. Müəyyən olunmuşdur ki, yaş artdıqca, analığa psixoloji hazırlığın səviyyəsi artır.

Tədqiqatda həmçinin hamilə qadının dəyər sferasının və analığa münasibətinin öyrənilməsi üçün İ.V.Dobryakovun «Hamiləliyə münasibət testi»ndən istifadə olunmuşdur. Test ilkin mərhələlərdə hamilə qadınlarda sinir-psixi pozuntuların aşkarlanmasına imkan yaradır, müvafiq yardımın göstərilməsində həkimləri və psixoloqları istiqamətləndirir.

Testin nəticəsinə görə, birinci qrupa aid olan 44% hamilə qadında QDPG-

nin optimal tipi - tamamilə sağlam hamilə qadınlar təşkil etdi; ikinci risk qrupunu somatik xəstəlikləri və sinir psixi pozuntuları olan qadınlar təşkil etdi (22%-da QDPG-nin eyforik tipi,14%-da QDPG-nin həyəcan tipi, 16%-da QDPG-nin hipoqnozik tipi). Üçüncü qrupa müxtəlif ağırlıq dərəcəsinə malik olan sinir- psixi pozuntulu qadınlar daxil olmuşdur. Onların 4%-də QDPG-nin depressiv tipi aşkar olunub. Bu qrupun psixoterapevtə, fərdi nəzarətə və müalicəyə ehtiyacları var. Metodikanın tədqiqinin sadəliyi qadın məsləhətxanalarında mama - ginekoloq tərəfindən işlənməsinə və onun vasitəsi ilə hamilə qadınlarda sinir - psixi pozuntuların erkən aşkarlanmasına imkan yaradır.

Körpəsindən imtina edən qadının ixtisaslaşmış psixoloq tərəfindən göstərilən sosial-psixoloji yardıma ehtiyacı var. Psixoloji yardım zamanı qadın şəxsiyyətinin fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

Hamilələrin doğuşa psixoprofilaktik hazırlığı sayəsində tibbi personal ilə və zahı qadınlar arasında sağlam münasibətlərin yaranması, gələcəklə bağlı pozitiv yönəlişliklərin formalaşması baş verir. Həkim tərəfindən hamilə qadının hər bir müayinəsi doğuşa və hamiləliyə qadının münasibətinin müəyyən yeniləşmə mərhələsi olmalıdır. Apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

1. Psixoloji cəhətdən hamiləliyə hazır qadınlarda müvəffəqiyyətli doğuş və körpələrdə yüksək göstəricilər müşahidə olunur. Analığa hazır olan qadınlarda adekvat «Mən- obraz»ı və ana olmağa müsbət yönəliş yaranır.

2. Üç yaş qrupundan olan qadınlarda psixoemosional vəziyyətlə, özünə, ətrafdakılara və analıqda özünü realizə etmək yönəlişi ilə bağlı gizli şəxsiyyətdaxili destruktiv proseslər aşkar olunmuşdur.

3. Emosional halların korreksiyasında, analıq roluna hazırlıqda və hamilələrdə analıq hissinin yaradılmasında psixoprofilaktika və psixokorreksiyanın kompleks şəkildə aparılması müsbət nəticələrə gətirib çıxarır ki, bu da doğuş zamanı travmaların və ağırlaşmaların azalmasına imkan yaradır.

4. Hamiləlik yalnız «şəxsiyyətin implisit nəzəriyyəsinə» yox, həmçinin qadın şəxsiyyətinin münasibətlər sisteminin və sağlam düşüncəsinin formalaşmasına təsir göstərir. Analığa hazırlığın əsas psixoloji kriteriyası kimi «uşaq obrazı»nın yaranması çıxış edir.

5. Yeni bir sosial rolun - ana rolunun qəbuluna hazır olmaması, hamilə qadının davranışının tənzimlənməsinin əsasını təşkil edir, daxili konfliktin yaranmasına səbəb olur.

6. Hamiləlik dövründə qadının şüurunda, mənlik şüurunda və şəxsiyyətində konkret dəyişikliklər baş verir ki, onlar da analığa hazırlığın formalaşmasının hamiləliyin təəsürat tipilə əlaqəsini müəyyən edir

7. Tədqiqatın nəticəsində analığa hazırlığın üç səviyyəsi müəyyən

olunmuşdur: aşağı, orta və yüksək. Bu göstəricilər analıq davranışının tipini müəyyən edirlər.

8. Müəyyən olunmuşdur ki, 24-26 yaşlı qadınlar psixoloji cəhətdən analığa tam hazırdılar. Onlarda sabit motivasiya sferası və sərvət dəyərləri sistemi tamamilə formalaşıb.

9. Aydın oldu ki, hamilə qadın şəxsiyyətinin hər tipinə hamiləliyin özünü qavramasının müəyyən səviyyəsi xasdır və o da analığa hazırlığın səviyyəsini və münasibət tipini müəyyən edir.

10. Hamilə qadınlarla psixoprofilaktik işin təşkili zamanı analığın davranış tipinə və şəxsiyyətin fərdi –psixoloji xüsusiyyətlərinin qarşılıqlı əlaqəsinə istinad etmək lazımdır. Bu hallarda çətin vəziyyətlərə şəxsi münasibətin xarakteri də nəzərə alınmalıdır.

11. Doğum evlərində və qadın məsləhətxanalarında psixi sağlamlığın qorunmasına yönəlmiş, əlverişli psixoemosional fonun yaranmasına, özü və uşağı haqqında adekvat təsəvvürlərin formalaşmasına təsir edə bilən psixoloji xidmətin yaranması vacibdir.

12. Psixoprofilaktikanın və psixokorreksiyanın kompleks proqramının həyata keçirilməsi nəticəsində psixoemosional halların korreksiyasında, analıq roluna hazırlığında və hamilələrdə analıq hissinin yaranmasında müsbət effektlərlə nəticələnə bilər.

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1.Yeniyetmə yaş dövründə baş verən ziddiyyətlər və onların aradan qaldırılması yolları // Dil və ədəbiyyat jurnalı, Bakı, № 5(53), 2006,s.160-161

2. Психологическая готовность женщины к родам // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Bakı,2006, № 3, s.556-559

3. Ölkəmizdə ginekoloji yardımın təşkili və sonsuzluğun aşkar edilməsi və müayinəsi // Azərbaycan Dövlət Pedaqoji Universiteti Xəbərləri, Bakı, 2006, № 2, s.175-178

4. Постнатальная депрессия // Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə jurnalı, Bakı, 2008, № 2-3, (11), s 237-241

5. Медико-социальные проблемы семьи, ожидающие ребенка // Psixologiya jurnalı, Bakı, 2008, № 3, s 95-103

6. Личностные отношения супругов, ожидающих ребенка // Psixologiya jurnalı, Bakı, 2008, № 4, s 21-28

7. Проблемы в перинатологии и психологическая помощь беременным женщинам // Современные гуманитарные исследования, Москва, 2009, № 6, s.203-204

8. Психологические осложнения во время беременности // Здоровье. Мин. Здрав. AR,Баку, 2010,№ 7, s.73-77

9. Роль психофизиологической адаптации во время беременности //Вестник Хирургии Казахстана, 2012, № 2(30) , с.74-76.

10. Девиантное материнство, как фактор социального кризиса семьи /Doktorantların və Gənc Tətqiqatcıların XV Respubkika Elmi Konfransın materialları. Bakı: 2011, s. 384-387.

11. Роль материнства в создании женской идентичности / Doktorantların və Gənc Tətqiqatcıların XVI Respubkika Elmi Konfransın materialları. Bakı: 2012, s.295-298.

**Ilaha Sardar gizih Kulieva**

# PSYCHOLOGY OF A CONDITION OF THE WOMAN DURING THE PERIOD PREGNANCY AND ITS PREPARATION FOR MOTHERHOOD

## RESUME

The dissertation is devoted one of actual problems of scientific research of a condition of women in pregnancy and its preparation for pregnancy.

Work consists of the introduction, three heads, the conclusion, the list of the used literature and the appendix. In introduction the problem urgency, degree of its readiness are proved, the purpose, problems is defined, research hypotheses, methods and methodology, scientific novelty reveals, the theoretical and practical importance of research is stated, positions taken out on protection are represented.

In chapter 1 «Theoretical bases of research psihofiziolo-gicheskogo conditions of the pregnant woman» are considered various mutual relations of the married couples expecting the child, a various number of the mediko-social and mediko-organizational risk factors operating before approach, during time and after the pregnancy end, influencing a state of health of women of reproductive age is stated,

In the second chapter «Psychological features of the woman in pregnancy» the self-perception, perception by the woman of the experiences at various stages of pregnancy is considered, changes in sincere sphere of the woman are stated, the interrelation of psychosocial factors was investigated at pregnancy with complications, a condition of a fruit and an outcome of sorts, influence of adverse vital events during pregnancy.

In the third chapter of the dissertation «Research of degree of psychological readiness for motherhood of women of various age» results of research are generalised and summarised in the conclusion.

Conclusions and the recommendations received in the dissertation, can be useful to public health services establishments (maternity hospitals, female consultations), to the higher and average special educational institutions to successful use and studying of methods of psychological preventive maintenance and correction at pregnancy, sorts and during the postnatal period.

**Илаха Сардар гызы Кулиева**

# ПСИХОЛОГИЯ СОСТОЯНИЯЖЕНЩИНЫ В ПЕРИОД БЕРЕМЕННОСТЬ И ЕЕ ПОДГОТОВКИ К МАТЕРИНСТВУ

## РЕЗЮМЕ

Диссертация посвящена одной из актуальных проблем научного исследования психологии женщин в период беременности и ее подготовки к беременности.

Работа состоит из введения, трех глав, заключения, списка используемой литературы и приложения. Во введении обосновываются актуальность проблемы, степень ее разработанности, определяется цель, задачи, гипотезы исследования, методы и методология, раскрывается научная новизна, излагается теоретическая и практическая значимость исследования. представляются положения выносимые на защиту.

В первой главе «Теоретические основы исследования психофизиологического состояния беременной женщины» рассмотрены различные взаимоотношения супружеских пар, ожидающих ребенка, изложен различный ряд медико-социальных и медико-организационных факторов риска, действующих до наступления, во время и после завершения беременности, влияющие на состояние здоровья женщин репродуктивного возраста.

Во второй главе «Психологические особенности женщины в период беременности» рассматривают самовосприятие, восприятие женщиной своих переживаний на различных стадиях беременности, изложены изменения в душевной сфере женщины, исследовалась взаимосвязь психосоциальных факторов при беременности с осложнениями, состоянием плода и исходом родов, влияние неблагоприятных жизненных событий во время беременности.

В третьей главе диссертации «Исследование степени психологической готовности к материнству женщин различного возраста» обобщены результаты исследования и резюмированы в заключении.

Выводы и рекомендации, полученные в диссертации, могут быть полезными учреждениям здравоохранения (родильные дома, женские консультации), высшим и средним специальным образовательным учреждениям для успешного использования и изучения методов психологической профилактики коррекции при беременности, родах и в послеродовой период.